*Üzür son limana ömrün gəmisi*
*Harda dayanacaq – o hələ bilmir.*
*Allahın yoludur su da, quru da*
*Mənzilə yetməsə dincələ bilmir.*

**Sabir Rüstəmxanlı**

# Həyatı

Xalq şairi, Dünya Azərbaycanlıları Konqresinin həmsədri, Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı 1946-cı il mayın 20-də Yardımlı rayonunun Hamarkənd kəndində doğulub. Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsini bitirib. Filologiya elmləri doktorudur. Azərbaycanın xalq şairidir. "Şöhrət" ordeni ilə təltif edilib.

Sabir Rüstəmxanlı Dünya Azərbaycanlıları Konqresinin həmsədridir. 30-dan çox kitabın müəllifidir, onlardan 10-u xarici ölkələrdə çap edilib. Rus və fars dillərini bilir. 1967-ci ildən "Ədəbiyyat və incəsənət" qəzetinin redaksiyasında kiçik ədəbi işçi, baş ədəbi işçi, şöbə müdiri, xüsusi müxbir, 1978-ci ildən "Yazıçı" nəşriyyatında şöbə müdiri, baş redaktorun müavini, baş redaktor, 1989-1991-ci illərdə "Azərbaycan" qəzetinin baş redaktoru olub. 1991-ci ildən Azərbaycan Respublikası Dövlət Mətbuat Komitəsinin sədri, 1992-1995-ci illərdə mətbuat və informasiya naziri vəzifələrində çalışıb. 1992-ci ildən yaratdığı Vətəndaş Həmrəyliyi Partiyasının sədridir.

2003-cü il prezident seçkilərində namizəd kimi iştirak edib.

Sabir Rüstəmxanlı 1990-cı ildən 2015-ci ilin 24 noybrınadək Milli Məclisin deputatı olub, 9 fevral 2020-ci ildə Milli Məclisə yenidən deputat seçilmişdir.

Onun "Ömür kitabı" adlı əsəri Azərbaycanda xalqın milli və yurdsevərlik duyğularının oyanmasında ciddi rol oynayıb və 1988-ci il milli-azadlıq hərəkatının mənəvi təməllərindən biri olub. "Tanımaq istəsən", "Xəbər gözləyirəm", "Gəncə qapısı", "Sağ ol, ana dilim!", "Qan yaddaşı", "Zaman məndən keçir" və s. şeir kitablarının, "Bütövlük", "Didərginlər", "Cavad xan", "Orxonla görüş" poemalarınıııт, "Bu sənin xalqındır" publisistik yazılarından ibarət əsərin, "Atamın ruhu", "Xətai yurdu", "Göy Tanrı", "Ölüm yaşamaqdan şirinmiş (Cavad xan)", "Difai Fədailəri", "Sunami", "Astar" romanlarının müəllifidir. Əsərləri bir çox dünya xalqlarının dillərinə tərcümə olunub.

2005-ci ildə Xalq Şairi fəxri adına layiq görülmüşdür.

S.Rüstəmxanlı 1988-ci ildə başlanan milli azadlıq hərəkatının ilk təşkilatçılarından və liderlərindən, Azərbaycan Xalq Cəbhəsinin yaradıcılarından biri olub. 1989-cu ildə Azərbaycanda ilk müstəqil, demokratik qəzet olan "Azərbaycan"ı təsis edib, iki il onun baş redaktoru olub.

Ölkənin ictimai-siyasi həyatında, ədəbi fikir tarixində xüsusi yeri olan Xalq yazıçısı, deputat, Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlının bu il 75 yaşı tamam olur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında uzunmüddətli səmərəli fəaliyyəti və 75 illik yubileyi münasibətilə yazıçını 20 may 2021-ci il tarixli sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edib.

Gənclərin milli-mənəvi tərbiyə işində daim yaxından iştirak edən Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının kollektivi və çoxsaylı oxucuları Vətən sevdalı, azadlıq və istiqlal yolunun yolçusu olan sevimli şairimizi 75 illik yubileyi və uzun müdddətli səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə təltif olunması münasibətilə təbirk edir, ona saglam can və yeni yaradıcılıq uğurları arzulayır.

***Hərdən zarafatla dostlara deyirəm ki, elə bil 75 il yox, 75 əsrdir yaşayıram. Çünki, bu ölkənin, bu xalqın bütün tarixinin, hətta Allahın özünün də mənim içimdən keçdiyini düşünürəm.***

**Sabir Rüstəmxanlı**